El futuro es de todos | Cancillería Embajada de Colombia en Azerbaiyán

# KOLUMBİYA BÜLLETENİ

№2 | Kolumbiyanın Azərbaycandakı Səfirliyi | Yanvar, 2021

## KOLUMBİYA VƏ AZƏRBAYCAN: TƏSƏVVÜR EDİLƏNDƏN DAHA DA YAXINDIR




*Coğrafiya bizi uzaqlaşdırsa da Kolumbiya ilə Azərbaycanı birləşdirən və bir-birinə yaxınlaşdıran bir çox element var. Müasir nəqliyyat və rabitə vasitələri, eyni zamanda hər iki ölkəni xarakterizə edən müxtəliflik, mədəni ifadələr, dəyərlər və beynəlxalq gündəmdəki əsas mövzulardakı ortaq maraqlar bu coğrafi məsafələri seyrəldir və xalqlarımızı daha da yaxınlaşdırır.*

*Bu gün bir neçə saat ərzində bir-birimizi ziyarət etməyə imkan verən müxtəlif uçuşlarımız və hava əlaqələrimiz (İstanbul, Frankfurt, Paris, Nyu York) var.*

*Fərqli və çox müxtəlif bölgələrə mənsub olmaq, nəhəng təbii sərvətlərə sahib olmağın verdiyi üstünlük və yeniliklərə daim açıq olmaq, özəl idarəetməni və iqtisadi və sosial tərəqqini təşviq etməkdə qarşılıqlı maraq iqtisadi münasibətlərimizi artırır və ikitərəfli əməkdaşlıq üçün geniş imkanlar açır.*

*Bəşəriyyətin mədəni irsinin qorunması, mədəniyyət və idmanın inkişafı kimi eyni öhdəliklərdə birgə bölüşürük. Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, YUNESKO, Sakit Okeanı Alyansı kimi böyük beynəlxalq forumlarda sıx əməkdaşlıq edirik. Coğrafi mövqeyimiz bizi bölgələrimizə çatmaq üçün mühüm strateji mərkəzə çevirir.*

***Məhz buna görə də, bir daha təsdiq edirik ki: Kolumbiya və Azərbaycan təsəvvür ediləndən də yaxındır!***

## Kolumbiya – xarici investisiyalar üçün etibarlı məkan

Kolumbiyanın ixrac və investiyanın təşviqi üçün dövlət agentliyi Procolombianın təşkilatçılığı ilə 2020-ci ilin oktyabrında virtual şəkildə keçirilmiş aralarında 50 ölkədən 1085 investorlara 2000-dən çox iştirakçısı olan Kolumbiya İnvestisiya Zirvə görüşündə Kolumbiyada investisiya üstünlükləri və imkanları təqdim edildi. Bu tədbirdə Kolumbiyanın hal-hazırki Prezidenti İvan Duke Markes və ABŞ-ın keçmiş prezidenti Bill Klinton kimi yüksək vəzifəli şəxslər də iştirak etmişdir.

### İnvestisiya üçün əlverişli sahələr

**Təmiz və bərpaolunan enerji** → Dünya İqtisadi Forumu, Kolumbiyanı günəş, külək enerjisi və bioyanacaq mənbələrini inkişaf etdirmək üçün əhəmiyyətli potensialına görə Enerji Keçid İndeksində Cənubi Amerikada üçüncü sırada qərar verdi.

**Aqro-meşə-melioravsiəya** → Kolumbiyanın əlverişli coğrafi mövqeyi ən azı 10 növ meşəyə ev sahibliyi etməyə imkan verir və milli Hökumət meşələrin bərpası üçün təşviq layihələri təklif edir.

**Aqrosənaye** → Əverişli iqlimi, münbit torpaq sahələri sayəsində, Kolumbiyada kofe, meyvə və çiçək kimi demək olar ki, hər növ istnilən məhsulu əkə bilərsiz.

**Kimya və Həyat Elmləri** → Kolombiya, Beynəlxalq Narkotiklərə Nəzarət Şurası tərəfindən icazə verilən 14 tona qədər tibbi cannabis istehsal edən dünyanın ən böyük kvotasına sahib ölkələrdən biridir.

**İnfrastruktur və Logistika** → Nəqliyyat və logistika infrastrukturu Kolumbiyaya xarici investisiyalar cəlb etmək üçün əsas sektorlardan biridir. 2019-cu ildə bu, birbaşa xarici investisiyaların 8,6% -ni təmsil etmişdir.

**Otel İnfrastrukturu və Turizmi** → Meqayihələr üçün təşviq proqramları: ölkədaxili ərazidə təxminən 325,6 milyon ABŞ dollarından çox olan və ən azı 400 birbaşa iş yeri yaradan yeni investisiya layihələri bu imkanlardan faydalana biləcəkdir.

### Üstünlüklər və imkanlar

- Siyasi və iqtisadi sabitlik.
- Strateji coğrafi mövqe.
- Bacarıqlı və istedadlı işçi qüvvəsi.
- Doing Business'ə görə, Kolumbiya azlıq təşkil edən investorların qorunması və kredit alma asanlığı ilə seçilir.
- Dünyada 4500-dən çox dəniz ixracatı marşrutu və 680 limana giriş.
- Qüvvədə olan 17 ticarət müqaviləsi ilə, siz 60 ölkəyə və 1,5 milyard istehlakçıya giriş imkanı əldə etmiş olacaqsiz.
- Bölgədə birbaşa xarici investisiyalar alan lider ölkə və xarici investisiyalar alan ilk 10 inkişaf edən iqtisadiyyatdan biridir.
- 2020-ci ilin yanvar-sentyabr ayları arasında Kolumbiya qeyri-mədən enerjisi sektorunda 4,093 milyon ABŞ dolları xarici birbaşa investisiya əldə etmişdir: ümumi investisiyalarda isə iştirak payı 75,1%-dir.

### Bill Klinton Kolumbiyaya investisiya yatırmaq üçün hər kəsi dəvət etdi:

*“2020-ci ildə baş verən hadisələr bütün həyatımızı pozsa da, milli və qlobal iqtisadiyyata təsir etsə də, Kolumbiya xalqının böyük istedadı və yaradıcılığı da daxil olmaqla bəzi şeylər dəyişməyib. Və ya ölkənin sərvətlərinin sonsuzluğu və onun böyük təbii gözəlliyi. Bu çətin vaxtda da ediləcək ağıllı investisiyalar var.”*

Mənbə: Kolumbiya İnvestisiya Zirvə görüşündəki çıxışı. https://procolombia.co/noticias/bill-clinton-hace-un-llamado-internacional-para-invertir-en-colombia

# KOLUMBİYA GƏLƏCƏYƏ İNAMLA BAXIR

*"Bu gün Kolumbiya dünyaya gələcəyə nikbin baxdığını söyləyir."deyə Prezident İvan Duke Markes, 2020-ci ilin sentyabrında BMT-nin 75-ci Baş Assambleyasında çıxışı zamanı söyləmişdir. Bu nikbinlik, ölkənin milli gündəmində yer alan vacib məsələlərdə irəliləməsində və bəşəriyyətin üzləşdiyi çətinliklərin öhdəsindən gəlmək üçün çoxtərəfli beynəlxalq əməkdaşlığa söykənən inamlarında əsaslanır. Bu münasibətlə, bəlkə də bu problemlərin ən böyüyünü həll edirik: sülhün qurulması və möhkəmləndirilməsi".*



Presidente Iván Duque durante el cierre de la 8º versión de 'Bioexpo Pacífico 2019'
Yumbo, Valle, 19/10/2019

## Qanunilik siyasəti ilə Sülhün inşasında irəliləyirik

✓ 2016-cı ildə keçmiş partizan qrupu FARC ilə əldə edilmiş Yekun Sülh Sazişi icra etmək və davamlı və stabil sülhün əldə edilməsi istiqamətində 2018-ci ilin sentyabr ayında Prezident İvan Duke hakimiyyəti Qanunilik ilə Sülh siyasətinə başlamışdır. Bu siyasətin hədəfi aydındır: qanunilik ilə sülh və bərabərliyin sütunları altında bir ölkə qurmaq.

✓ Təhlükəsizlik Şurası və BMT Baş Katibi tərəfindən təsdiqlənən uzunmüddətli mərhələyə söykənən bu siyasət, əraziləri təmizləmək məqsədi daşıyır, və zərərçəkmişlərin hüquqlarının qorunmasına və qanuna dəstək verən hərbir kəsə yönləndirilmişdir.

✓ Bu siyasət, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni, "Ruta Futuro"(Gələcək Yollar) layihəsini,habelə, Müdafiə və Təhlükəsizlik Siyasətini bir araya gətirmək üçün yaradılmışdır.

## Bunlar Qanunilik siyasəti ilə Sülhün bərpasında ən vacib nailiyyətlərindəndir:

- **Zərərçəkmişlər və torpaqların qaytarılması.** Zərərçəkmişlərin Müdafiəsi və Torpaqların Qaytarılması Qanunu on il müddətinə qədər (2031-ci ilə qədər) uzadıldı və bu qanundan doqquz milyondan çox insan faydalanır. Zərərçəkmişlərə istənilən qayğının göstərilməsi, onların qorunması və kompensasiya verilməsi modeli çərçivəsində 2018-ci ilin avqustundan 2020-ci ilin noyabrınadək təqribən 848 milyon dollar məbləğində sərmayə qoyulmuşdur. Eyni şəkildə, 50 min hektardan çox ərazi mülkiyyətdən zorla çıxarılan kəndlilərə bu torpaqlar geri verilmişdir.
- **Kənd ərazilərinin hərtərəfli inkişafı.** Torpağın rəsmiləşdirilməsində irəliləyirik. 2018-ci ilin avqust ayından bəri 4765 ailənin xeyrinə Torpaq Fondu vasitəsi ilə 63.480 hektar ərazi təhvil verilmişdir.
- **Keçmiş döyüşçülərin yenidən reinteqrasiyasaı.** Farc-ın keçmiş döyüşçülərini hərtərəfli və davamlı şəkildə sosial və iqtisadi reintqrasiya prosesində bu istiqamət Qanunilik siyasəti ilə Sülhün əsas komponentidir. 13.663 keçmiş döyüşçü sağlamlıq və pensiya məsələlərində sosial təminat sisteminə qoşulmuş və 5700 insanı əhatə edən 17 milyon dollar dəyərində 2050 məhsuldar layihə təsdiq edilmişdir.
- **Ərazi inkişafı.** 13 500-dən çox keçmiş döyüşçünün yenidən sivil həyata qaytarılmasını dəstəkləyən 16 İnkişaf Proqramları vasitəsilə 750 milyon dolları keçən bir sərmayə ilə doqquz milyondan çox zərərçəkmiş insanlara şiddətin təkrarlanmamasını zəmanəti verərək kömək edilmişdir və şiddət və yoxsulluqdan ən çox təsirlənən 170 əyalətdən 6,6 milyon insana kömək etməkdə davam edirik.
- **Keçid dövrü ədaləti.** Hərtərəfli Həqiqət, Ədalət, Bərpa və Təkrarlanmamaq Sisteminin bütün komponentlərinin müstəqilliyi təmin edilmişdir.
- **Maliyyələşdirmə.** 2018-2022-ci illər Milli İnkişaf Planında 11,6 milyard dollar dəyərində Sülh üçün Çox İllik İnvestisiya Planı üçün müəyyən bir istiqamət yaradıldı.
- **Keçmiş döyüşçülərin təhlükəsizliyi.** Keçmiş döyüşçülərin, insan haqları müdafiəçilərinin, sosial liderlərin və icmaların təhlükəsizliyi və qorunması ən böyük vəzifəmiz olaraq qalır. Və onların fərdi və kollektiv qorunması, istintaq və təqibə dəstəyi gücləndirmək üçün Hökumət 15 müxtəlif dövlət qurumlarını bu işə cəlb etmişdir.
- **Siyasi iştirak.** Farc-ın siyasi partiyaya çevrilməsi bir həqiqətdir. Yeni siyasi partiya FARC, Yekun Sülh Sazişində nəzərdə tutulduğu kimi Senatda beş, Palatada beş yer aldı və 2019-cu ilin oktyabr ayında keçirilmiş yerli seçkilərdə iştirak hüququnu əldə etdi.

## *Beynəlxalq əməkdaşlıq – Kolumbiyada sülhün bərpası üçün vacib amildir.*

- FARC ilə Yekun Sülh Sazişin müzakirəsi zamanı beynəlxalq ictimaiyyətin əməkdaşlığı əsas idi və Sazişin həyata keçirilməsi üçün əsas amil olmağa davam edir.
- Bu səbəbdən Milli Hökumətin təşəbbüsü ilə BMT-nin Doğrulama Missiyasının mandatı yeniləndi və bu, Kolumbiya Hökumətinin Qanunla Sülh əldə etmək məqsədiylə irəliləməsinə şahid olmaqla yanaşı, həm də FARC-ın Yekun Sazişin irəli sürdüyü öhdəliklərə riayət edilməsində təməl rol oynayır.
- Zərərçəkmişlərə kompensasiya edilməsi, kənd ərazilərinin inkişafının gücləndirilməsi və kənd mülkiyyətinin rəsmiləşdirilməsində beynəlxalq birliyin verdiyi töhfə xüsusilə qiymətlidir.
- Kolumbiya Birləşmiş Millətlər Təşkilatının Donor Fonduna, Avropa Sülh Fonduna,USAID-ə, habelə, töhfələrini və dəstəyini ikitərəfli artıran bütün ölkələrə təşəkkür edir.
- **Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının vurğuladığı kimi, Kolumbiya COVID-19, iqtisadi böhran, regional miqrasiya böhranı və qlobal problem olan narkotik və qeyri-qanuni iqtisadiyyat kimi çətinliklərə baxmayaraq sülh üçün öz səylərini əsirgəmir və bu istiqamətdə öz işlərini davam etdirir.**

# KOLUMBİYANIN GƏLƏCƏYİ ÜÇÜN ÖHDƏLİK: İQTİSADİ REAKTİVASİYA ÜÇÜN STRATEGİYA

Prezident İvan Duke tərəfindən 2020-ci ilin iyulunda başladılan iqtisadi və sosial reaktivasiya planı olan **Kolumbiyanın Gələcəyi üçün Öhdəliyinə dair** artıq proqramlar həyata keçirilməyə başlamışdır,və əsas məqsədi isə Hökumətin 2018 - 2022-ci illər üçün müəyyənləşdirdiyi əsas hədəfləri unutmadan COVID-19 ilə mübraizə və səhiyyə sektorunun güclənməsidir. Bu plan nəzərdə tutur:

- Təxminən 59 milyard dollarlıq investisiya
- 2 milyon rəsmi iş yerlərinin yaradılması
- Indiyə kimi müəyyən 562 layihə

## Kolumbiyanın Gələcəyi üçün Öhdəlik programı, kolumbiyalıların sağlamlığını əsas götürən dörd başlıca mövzuya diqqət yetirir:

**1. İş yerlərinin yaradılması öhdəliyi.** Kiçik və orta sahibkarlara dəstəyi, böyük infrastruktur layihələrinin sürətləndirilməsini, narıncı (yaradıcı) iqtisadiyyat layihələrini təşviq etməyi, əlaqə və rəqəmsal transformasiyanı inkişaf etdirməyi və turizm və otellər kimi pandemiyadan təsirlənən sektorların bərpasına dəstəyi birləşdirən strategiya.

**2. Təmiz və davamlı inkişaf öhdəliyi.** Enerji keçidi, iqlim dəyişikliyinin təsirləri ilə mübarizə, daha çox meşələrin bərpası və daha az meşələrin qırılması və ətraf mühitə dair məlumatlara diqqət yetirir.

**3. Cəmiyyətin ən kasıb və həssas qrupları ilə olan öhdəlik.** Heç vaxt dövlət dəstəyi almayan 3 milyon ailəyə çatması təklif edilən Həmrək Gəlirlə dəstək proqramı 2021-ci ilin iyun ayına qədər davam edəcək. Dövlət tərəfindən 200 min mənzil üçün subsidiya ayrılmışdır. Təhsil proqramlarında və təhsil infrastrukturunun qurulmasında irəliləyişdə. məqsədlərdən biridir.

**4. Kənd təsərrüfatına və qanunla sülh siyasətinə olan öhdəlik.** Müqavilələ Əkinçilik proqramının davam etdirilməsi, kənd yerlərində ictimai malların təmin edilməsi və çox məqsədli kadastrın həyata keçirilməsi. Fermerlərə hərtərəfli dəstək.

**KOLUMBİYA NAMİNƏ ÖHDƏLİK: TİCARƏT, SƏNAYE VƏ TURİZM SAHƏSİ ÜÇÜN İQTİSADİYYATIN YENİDƏN CANLANDIRILMASI İSTİQAMƏTİNDƏ 13 FƏALİYYƏT NÖVÜ**

**1.** Şirkətlərin maliyyələşdirilməsində yeniliklər.
**2.** Yeni normallaşma müddətində iş yerlərində yeni tədbirlərin tətbiqi.
**3.** Hərkəs üçün iqtisadiyyatın canlandırılması.
**4.** Regionların iqtisadi canlandırılması.
**5.** Məhsuldardarlığı yenidən aktivləşdirmək üçün istehsal amillərinə giriş.
**6.** Elmə Əsaslanan Xidmətlərin təşviqi (EƏX).
**7.** Elektron kanallar vasitəsilə Ticarət marketinqini inkişaf etdirmək.
**8.** Yeni ticarət imkanlardan yararlanmaq.
**9.** İnvestisiyaların cəlb edilməsində səmərəliliyin artırılması.
**10.** Turizmdə təhlükəsizlik tədbirlərinin sertifikatlaşdırılması.
**11.** Turizm və aviasiyaya iqtisadi dəstək.
**12.** Dövlət və beynəlxalq səviyyədə təşviq kompanyaları.
**13.** İnnovasiyalar, Rəqabetlilik və İdarəetmə proqramları.

## "KOLUMBİYA KOFESİ. KOFENİN ƏSİL DADI"



Kolumbiya qəhvəsi yüksək keyfiyyətli və biraz turş, sitrus meyvəli və şokolad təamlı bir ləzzətə malikdir. Kolumbiya bu məhsulun istehsalına görə dünyada yalnız Braziliya və Vyetnamdan sonra üçüncü yerdədir. Ölkənin xüsusi qüruru füsunkar ləzzəti olan Arabikadır.

2007-ci ildə Kolumbiya kofesi qorunan məhsul statusu aldı. 2011-ci ildə YUNESKO Kolumbiyanın kofe yetişdirildiyi ərazini Dünya Mirası Siyahısı elan etdi.

Kolumbiya üçün kofe yalnız ixracın vacib bir hissəsi və əhəmiyyətli bir gəlir mənbəyi deyil, eyni zamanda milli identifikasiya meyarlarından biridir. Günümüzdə kofe yetişdirilməsi Kolumbiyadakı ən ənənəvi fəaliyyətlərdən biridir və 2019-cu ildə **dünyanın üçüncü ən böyük istehsalçısına çevrilmişdir**. Kolumbiya kofe ixracatı 2019-cu ildə 8,2 milyard ABŞ dolları, və beləliklə, bu göstərici Kolumbiyanı isə 2019-cu ildə dünyada ikinci ən böyük kofe ixracatçısına çevirmişdir.

1927-ci ildə kofe istehsalçılarının hüquq və mənafelərini qorumaq üçün Kolumbiya Kofe İstehsalçıları Federasiyas yaradıldı. Bu gün dünyanın ən böyük qeyri-kommersiya kənd təsərrüfatı təşkilatıdır.

1959-cu ildə Kolumbiya kofe beynəlxalq bazarda tanıtmaq üçün simvolik bir xarakter yaratdı: Juan Valdez. Juan inanılmaz dərəcədə məşhur oldu və ölkənin ticarət mövqelərinin möhkəmlənməsinə çox töhfə verdi

Kolumbiya kofesini Azərbaycanda tanıdılması üçün bu Səfirlik 2019 və 2020-ci illərdə Beynəlxalq Qəhvə Assosiasiyasının tərəfindən təşkil olunan Çay və Qəhvə Festivalında iştirak etmişdir.

# İQTİSADİYYATIN CANLANMASINDA İƏİT KOLUMBİYANI DƏSTƏKLƏYİR

2020-ci ilin 14 dekabr tarixində Prezident İvan Duke, İƏİT ilə Saziş imzalamışdır. Və beləliklə, Kolumbiya Covid-19 pandemiyasının yaratdığı fəsadlardan sonra zərərgörmüş iqtisadiyyatını yenidən aktivləşmə mərhələsində beynəlxalq təşkilatların köməyini əldə edəcəkdir.

Əsasən üçü mərhələdən ibarət olan bu Saziş aşağıdakıları özündə ehtiva edir:

**1.** Sosial müdafiə və əməyin rəsmiləşdirilməsi: bu məsələyə xidmət edən milli siyasətin yaradılmasına təkan vermək. Sözügedən qaydalar rəsmiləşdirmə üçün lazımi təşviqləri və qadınlar, gənclər və kənd əhalisi üçün xüsusi strategiyaları da əhatə etməlidir.
**2.** Rəqabət və tənzimləmə: rəqabət siyasətindəki islahatları, tənzimləmə qaydalarına təkan verərək daha rəqabətli bir mühitin yaradılmasına kömək edən digər bu kimi tədbirləri təşviq edən sistem yaratmaq.
**3.** Məhsuldar şaxələndirmə və davamlılıq: məhsuldar aparatın şaxələndirilməsini gücləndirməyə imkan verən elm, texnologiya və innovasiya fəaliyyətlərini gücləndirmək.

El futuro es de todos | Cancillería Embajada de Colombia


Kolumbiya Respublikasının Prezidenti, Ivan Duke



İƏİT-in Baş Katibi, Anxel Qurriya

**“Kolumbiya Təşkilatın 60 illiyində üzv ölkəyə çevrilmişdir və bu gün imzaladığımız bu saziş ilə ümid edirik ki, bu təhlükəsiz, əhatəli və təmiz aktivasiya gündəliyi gələcək kolumbiyalı nəsillər üçün yeni tarixi bir dəyişiklik yaradacaqdır”**

- İmzalanmış sənəd “yaxşı niyyətlərin bəyannaməsi deyil, fəaliyyətə aparan yoldur”.
- "Bu ağır pandemiya aylarında" ölkə reanimasiya şöbələrinin sayını iki dəfəyə yaxın 11 minə qədər artırmağı bacardı və tədricən iqtisadiyyatın yüzdə 95-i, eyni zamanda Covid-19-dan təsirlənənlərdən % 92-si bərpa olunur.
- İyul ayında başladılan yeni 'Kolumbiyanın Gələcəyi üçün Öhdəlik', 59 milyard dollara yaxın sərmayə əldə etməyimiz və 2 milyona yaxın iş yeri yaratmağı hədəfləyən "açıq və həqiqi bir dəvətdir".
- 2021-ci ilin büdcəsində səhiyyə, təhsil, mədəniyyət, idman, ətraf mühit, su və kanalizasiya və üçüncül yollar kimi sahələrdə tarixi artımlar var.
- Bu yenidən aktivasiya əvvəlki vəziyyətimizə qayıtmaq üçün deyil, daha yaxşı bir gələcək düşünmək üçündür.
- Bu aktivləşdirmə "qadın və kişi arasındakı boşluqları və maaş maneələrini aradan qaldıran" və mikro, kiçik və orta müəssisələrin layiqli iş yerləri yaratması üçün hərtərəfli imkanlar yaradacaq.
- Yenidən aktivləşmə davamlı və təmiz olmalıdır və Kolumbiyanın 2030-cu ilə qədər istixana qazı tullantılarını 51% azaltmaq və 2050 ci ilə qədər karbon neytral bir ölkə olmağı hədəfləyən bir ölkə olacağıq.
- “Qeyri-ənənəvi bərpa olunan enerjidə 2018-ci ildə olan göstəricinin 0,2% -dən 2022-ci ildə 14% -dən çox olan iddialı enerji keçidini əldə edəcəyik.
- Yenidən aktivləşmə də rəqəmsal olmalıdır və bu sahədə bu öhdəliyi olan 17 rəqəmsal daxilolma və inkişaf layihəsi olduğunu vurğuladı.
- Biz "getdikcə daha çevik bir tənzimləmə sistemi, daha çox sərmayə tərəfdarı, daha rəqabətçi və bölgədaxili ticarəti və dünyanın qalan hissəsi ilə ticarəti artırdığımız inteqrasiya vizyonu" istəyirik.
- İƏİT ilə birlikdə çalışmaq istədiyimiz gündəlik ”Təşkilatın öz şüarında deyildiyi kimi“ daha yaxşı siyasət, daha yaxşı həyat” axtarır.

**İƏİT, Kolumbiyanı ölkənin iqtisadi aktivləşməsində dəstəkləməyə hazırdır: Anxel Qurriya Gurría**

**“İƏİT, pandemiyanın yaratdığı sosial və iqtisadi zərərlərlə üzləşmək üçün hazırlanmış yeni“ Kolumbiyanın Gələcəyi üçün Öhdəlik ”olaraq adlandırılan yol xəritəsinin həyata keçirilməsində Kolumbiyaya dəstək verməyə hazırdır.”.**

- Bu addım "ölkədəki fərqli sektorları Kolumbiyanın iqtisadi və sosial aktivləşməsini təşviq etmək üçün böyük bir milli müqavilə ətrafında ifadə etməyə çalışır" dedi.
- Bu strategiyanın müddəalarına uyğun olaraq və Kolumbiya Hökumətinin İƏİT ilə işbirliyini həyata keçirmək üçün müəyyənləşdirdiyi prioritetləri nəzərə alaraq, sosial müdafiə və əməyin rəsmiləşdirilməsi, rəqabət və tənzimləmə və məhsuldar şaxələndirmə və davamlılığı əhatə edən məsələləri özündən birləşdirən həllər hazırlamaq və həyata keçirmək üçün tərəflər birlikdə işləmək imkanlarını araşdıracaqlar
- Bu həm məhsuldar sektorda, həm də dövlət maliyyəsində daha çox dayanıqlılığa səbəb olacaqdır.
- Vəziyyəti nəzərə alaraq, çətinliklər davamlılıq yanaşması ilə həll olunmalıdır. Bu fəaliyyət xəttinin inkişafı üçün İƏİT-in regional məhsuldarlıq qrupları, dairəvi iqtisadiyyat, mavi iqtisadiyyat və bioiqtisadiyyata yönəlmiş siyasətlərin həyata keçirilməsindəki əhəmiyyəti daha da vurğulanır.

ORGULLOSOS DE NUESTRA BANDERA

# KOLUMBİYA MÜXTƏLİFLİKDİR

## KOLUMBİYA: KƏŞF EDİLMƏYƏN CƏNNƏT

Kolumbiya çimərliklərinin müstəsna gözəlliyi onun təbii sərvətlərinin sübutudur. Karib dənizi və Sakit Okeanın sahillərində yerləşən istirahət etmək, şnorkel, dalış və sörf kimi su idman növləri ilə məşğul olmaq üçün mükəmməl bir yerdir. Buraya səyahət edənlər fərqli bir təcrübə yaşayacaq, bənzərsiz bir qastronomiya ilə tanış olacaq, bütün ritmlərdə musiqidən zövq alacaq və gözəl gün batımını izləyə biləcəklər.



Foto: @adrian.tdm

### Rozario Adaları



Kolumbiya Karib Adaları, Corales del Rosario Milli Təbiət Parkının bir hissəsi olan 30 adadan ibarətdir, Cartagena'dan qayıqla yalnız 45 dəqiqəlik məsafədə yerləşir.

Foto: : @javivisits

### Tayrona Parkı - Santa Marta Qarlı Zirvələr



Təbiət, macəra və yürüyüş həvəskarları üçün Tayrona Parkı ziyarət etmək üçün ən mükəmməl yerdir. Gözəl çimərliklərinə əlavə olaraq, Santa Marta Qarlı Zirvələrdə yaşayan yerli xalqların mədəniyyətini öyrənmək mümkündür

Foto: : @daniellapre

### Nukí - Çoko



Foto: : @dogntravel

Şimali Pasifik - Çoko cəngəlliyinin bir neçə kristal çayla və nəhəng okeanla necə görüşdüyünü, Kolumbiya Sakit okeanının bənzərsiz mənzərələrini və ən gözəl çimərliklərini meydana gətirdiyini görə biləcəksiniz. Orada flora və faunası ilə birlikdə dərin bir mədəni irs yaşayacaqsınız. Bura qozbel balina seyr mövsümündə ziyarət etmək üçün başqa bir cənnətdir.

### KOLUMBİYANIN 10 ƏN YAXŞI ADALARI

Çimərliklərinin gözəlliyi və müxtəlifliyi Kolumbiyanı ilin istənilən vaxtında stresdən və təlaşlardan uzaq olmaq, dənizdən və təbiətdən zövq almaq üçün ideal bir yerə çevirir.

**1.Rinkon del mar, Sukre**

**2. Rozario Adaları, Bolivar və Sukre**

**3. Tayrona Parkl, Magdalena**

**4. Uramba Bahía Malaqa, Vaye del Kauca**

**5. Providensiya Adası**

**6. Palomino, La Guaxira**

**7. Nuki, Çoko**

**8. El Kabo de la Vela, La Guaxira**

**9. Bahia Solano, Çoko**

**10. Kapurqana, Çoko**

### Providensiya Adası



Foto: : @mariocarvajal

Kolumbiyanın ən yaxşı adalarından biri, San Andres, Providencia və Santa Katalina arxipelağının bir hissəsi olan Providensiya Adasıdır. Ölkənin ən təcrid olunmuş və ucqar yerlərindən biri olduğu üçün demək olar ki, onu əlçatmaz təbii cazibədar bir yerə çevirir. Büllur kimi təmiz su, böyük manqrlar və sulu bitki örtüyü ilə əhatə olunmuş, səs-küydən və çirklənmədən uzaq kiçik cənnət axtarışına çıxanlar üçün əla bir yerdir. Bir vaxtlar ingilis müstəmləkəsi olduğu üçün kriol mədəniyyəti tamamilə fərqlidir; İngilis, İspan, Fransız, Portuqal, Holland və Afrika ləhcələrini qarışdıran yerli və qədim dilləri birləşdirərək yeni Kreol dili yaradılmışdır.

## KOLUMBİYALI DAHİ YAZIÇI



**QABRİEL QARSİYA MARKEZ (QABO)**
**BİZİM ƏDƏBİYYAT ÜZRƏ NOBELLİ FƏXRİMİZ**

Yazıçı 1927-ci ilin 6 mart tarixində Kolumbiyanın Arakataka vilayətində anadan olmuşdur.

Qabo, ləqəbli yazıçımız gənc yaşlarında Hüquq fakültəsini bitirmişdir, ancaq buna baxmayaraq ədədbiyyata meyli olan gənc Qabo sonda jurnalist və yazıçı kimi fəaliyyata başlamışdır.

Onu daha sonra uzun illər Avropada yaşamasına imkan verən jurnalist kimi milli qəzetlərin birində işləməyə başlamışdır. 1995-ci ildə ilk uzun hekayəsini nəşr etməyə nail olur: *"Düşmüş yarpaq"*, və 1957-ci ildə isə Parisdə *Polkovnikə məktub yoxdur*.

1967-ci ildə isə yaradıcılığının şah əsəri sayılan, XX əsr ədəbiyyatının incilərindən sayılan və 24 dilə tərcümə edilən *Yüz il tənhalıq* romanını cəmiyyətə təqdim etmişdir.

Və İsveçrə Akademiyası dahi yazıçını 1982-ci ildə Ədəbiyyat üzrə Nobel mükafatı ilə taclandırır.

*Magik realizmi* özünə əsas ədəbi üslub kimi götürən Markes əsərlərində reallıqla təxəyyülü bir araya gətirmişdir. Əsərlərindəki hadisələr Makondo adlı uydurma bir kənddə cərəyan edir və əslində bütün latınamerika ölkələrindəki əsil həqiqətlərini ifşa edir.

Ömrünün böyük hissəsini Meksikadakı evində keçirən Markes elə burada da 2014-cü ilin aprel ayında 87 yaşında vəfat etmişdir.

*Latın Amerikası ədəbiyyatının yenilikçi simalarından* , olan Qabo dünya ədəbiyyatına silinməz miras qoymuşdur. .

*"(...) Hər sətirdə həmişə poeziyanın ikimənalı ruhuna uymağa və ölümün kor təbii gücündən və falçılıq fəzilətlərindən demək olar hər sözdə qaçmağa çalışıram.. (...)"*. Sitat: Latın Amerikasının "yalnızlığı" (1982-ci il Nobel mükafatını alan zamankı çıxışı).

# KOLUMBİYADAN ZÖVQ ALIN
# VİZAYA EHTİYAC YOXDUR!



Boqota



Sierra Nevada de Santa Marta



Kartaxena de İndias



Palokemao bazarı



Mobil qəhvə yük maşını



San Paço festivalı (Kibdo)



Quayniya, Amazon bölgəsi



San Andres Adası



Kolumbiya orxideyası



Medellin Gül Festivalı



Qırmızı Macaw tutuquşu

El futuro
es de todos

Cancillerla
Embajada de Colombia
en Azerbaiyán